MUSİQİ DÜNYASI 4/89 2021

# MULTİKULTURALİZM BAKI MUSİQİ AKADEMİYASINDA

*Mina HACIYEVA*

**PREZİDENT İLHAM ƏLİYEV:**
*"MULTİKULTURALİZM AZƏRBAYCANIN HƏYAT TƏRZİDİR".*

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında Ümummilli lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmış, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır.

Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin söylədiyi "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib.

Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il "Multikulturalizm

ili" və rəsmi olaraq dövlət siyasəti kimi elan edilmişdir. Bununla əlaqədar ali təhsil ocaqlarında fənn olaraq "Multikulturalizmə giriş" bakalavr və "Azərbaycan multikulturalizmi" magistr səviyyəsində tədris etməyə başladılar və tələbə-gənclər tərəfindən müsbət qarşılandı.

Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.

Azərbaycan müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı xalqların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub. Bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib.

Azərbaycan elmi-fəlsəfi, publisistik təfəkkürünün tarix boyu ortaya qoyduğu nümunələr dünya tolerantlıq və multikulturalizm xəzinəsinə əsl töhfədir.

Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyev tərəfindən 2016-ci Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Prezident İlham Əliyev ölkəmizdə multikulturalizmin inkişaf etdirilməsində və multikulturalizmin ölkənin sosial iqtisadi inkişafında rolunun artırılmasında misilsiz xidmətlər göstərir. Buna görə Azərbaycan Respublikası Prezidentinin 15 may tarixli Fərmanı ilə Bakı Multikulturalizm Mərkəzi yaradılmışdır. Mərkəzin əsas vəzifələri aşağıdakılardır:

1. Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək Mərkəzin əsas məqsədidir;

2. Multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və təbliği mexanizmini hazırlamaq;

3.Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib gerçəkləşdirmək;

4. Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək;

5. müxtəlif bölgələrə aid mədəni irsi öyrənmək, onların müasir dövrdə ahəngdar inkişafının təmin edilməsinə, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək;

6. multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etmək;

7. aidiyyəti elmi qurumlarla əlaqəli şəkildə Azərbaycan Respublikasının müxtəlif bölgələrində qədim mədəniyyət izlərini axtarmaq (arxeoloji tədqiqatları "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil etmək), mədəni, etnoqrafik irsin toplanıb elmi şəkildə öyrənilməsini və qorunmasını həyata keçirmək;

8. təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən, şəxsiyyətin mənəvi bütövlüyünün həmahəng inkişafına mane olan müəyyən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr gerçəkləşdirmək;

9. müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirmək;

10. Azərbaycan Respublikasının multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək;

11.şəxsiyyətin saflaşmasında, xalqlararası, dinlərarası qarşılıqlı hörmət və etimad münasibətlərinin yaranmasında xüsusi xidməti olan görkəmli yerli və xarici ölkə vətəndaşlarının qiymətləndirilməsi, təşviq edilməsi mexanizmini hazırlayıb həyata keçirmək;

12. multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaq;

13. bu Nizamnaməyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

Mərkəzin icraçı direktoru Rəvan Həsənovun prezidentin fərmanına əsasən multikulturalizmin Azərbaycanda inkişaf etdirilməsində, həmçinin Azərbaycanın zəngin mədəniyyətinin və tolerantlığının xarici ölkələrdə təbliğ olunmasında, müvafiq olaraq genişmiqyaslı tədbirlərin keçirilməsində xidmətləri olduqca böyükdür.

Multikulturalizm fənn olaraq "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar kafedrası"nın kafedra müdiri, professor, sənətşünaslıq doktoru, Əməkdar incəsənət xadimi, Azərbaycan musiqi mədəniyyətinin müasir texnologiyalar vasitəsi ilə təbliğinə görə «Humay» mükafatına layiq görülmüş, 37 monoqrafiya, elmi-publisistik kitabların müəllifi, 100-dən artıq elmi məqaləsi beynəlxalq və respublika nəşrlərində çap olunmuş, bir sıra beynəlxalq konfrans və simpozumlarda ölkəmizi layiqincə təmsil edən Məmmədov Tariyel Aydın oğludur.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar kafedrası"nın professoru, sənətşünaslıq doktoru, Fəlsəfə elmləri doktoru, Rusiya Fəlsəfə cəmiyyətinin sədri, MDB ölkələr Parlamentlərarası Assambleyasının üzvü, "Yeni Azərbaycan" partiyası BMA təşkilatının Rəyasət heyətinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində Elmi Şuranın üzvü və sədr müavini, Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının Rəyasət Heyyətinin üzvü, "Multikulturalizm" fənni üzrə dərs aparmağ üçün iki sertifikata layiq görülmüş, Multikultural sahədə layihələrə uğurla rəhbərlik edən Mina xanım Hacıyeva tərəfindən müvəffəqiyyətlə tədris olunur.

Məhz M.Hacıyevanın sayəsində "Multikulturalizm" fənni ənənəvi tədris metodu olaraq yox, həmçinin multikultural dəyərləri özündə parlaq şəkildə əks etdirən, tələbələrin aktiv iştirak etdiyi bir-birindən maraqlı layihələr, tədbirlər, tamaşa və konsertlər şəklində keçirilir. Mina xanımın müxtəlif illərdə təşkil etdiyi

tədbirlərə və tələbələrinin yaradıcı xüsusiyyətlərini daha da üzə çıxarıb, uğurlar əldə edərək qatıldığı müxtəlif layihələrə nəzər salaq.

2016-cı il 8 noyabr tarixində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Beynəlxalq Tolerantlıq gününə həsr olunmuş, Rusiya Federasiyasının Xalq artisti, Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri Dikalu Muzakayevlə yaradıcı görüş keçirilmişdir. Layihənin rəhbəri MDB parlamentlərarası Şurası Assosiasiyası sədri V.İ.Matviyenko tərəfindən "Mədəniyyət və incəsənətdə inkişaf xidmətlərinə görə" nişanı ilə təltiş olunmuş professor Mina Hacıyevadır. Çoxmillətli yaradıcı gənclər maestro ilə canlı ünsiyyətdə ifaçıların həm estetik təbiətini, həm də temperamentini özündə birləşdirən dünya rəqs üslublarının rəngarəngliyi və identifikasiyası məsələlərini müzakirə ediblər. Latın Amerikası və Avropa xoreoqrafik eskizlərini təqdim edən gənc ifaçılar Rüstəm Hacıyev və Ayan Mirzəyeva ölkələr və qitələr üzrə virtual səyahətin həyata keçirilməsinə kömək ediblər.Bu da tələbələrə multikultural siyasəti aşılamağa böyük kömək olmuşdur.

Hər il noyabrın 16-sı Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Beynəlxalq Tolerantlıq günü 1995-ci ildə UNESCO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır.

Bu gün Azərbaycan dünyada həm də tolerantlıq öməyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər ölkəmizi müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. "Four seasons" otelində böyük bir tətbirin təşkili - ssenaru müəllifi və quruluşçu rejissoru Mina xanım idi. Tətbirdə Prezident apparatın nümayəndələri, dini qurumlar, azsaylı xalqların icma nümayəndələri və səfirləri iştirak ediblər. Tədbir çərçivəsində konsert proqramında avropa, sərq musiqi səslənib, həmçinin Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətinin rəqsləri ifa olunub.

2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə dövlət proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. Həmin Dövlət Proqramına dəstək bu Sərəncama uyğun olaraq, 26 dekabr 2017-ci il tarixində British Council tərəfindən Əlilliyi olan şəxslərin inkluziv təhsili və onların iş dünyasında fəaliyyəti ilə bağlı layihənin təqdimatı keçirilib. Tədbirdə Bakı Musiqi Akademiyasının professoru Mina xanım Hacıyeva iştirak edib."Four Seasons" otelində keçirilən təqdimat mərasimində Birləşmiş Krallıqdan gələn ixtisasçı Mark Grey məruzə ilə çıxış edib.

British Council, ASAN Radio və YARAT Müasir İncəsənət Məkanı ilə birlikdə "Selector PRO" layihəsi çərçivəsində musiqi tədbirlərin təşkili mövzusunda üç günlük təlimdə Bakı Musiqi Akademiyasının professoru Mina Hacıyeva və birinci kurs tələbələri Suada Hacızadə və Elmina Həsənova iştirak ediblər. Millətlər arası əlaqələri qurmaq üçün ən asan və gözəl vasitə musiqi tədbirlərin təşkili prosesinə yiyələniblər.

YARAT mərkəzində 31 yanvar - 2 fevral 2018-ci il tarixlərində keçirilmiş təlimdə Birləşmiş Krallıqdan və Azərbaycandan olan aparıcı musiqi xadimləri - nəzəriyyəçi və təcrübə keçən tələbələr bir araya gəliblər. Üç gün davam edən ustad dərsləri silsiləsində tədbirlərin təşkili, o cümlədən, tədbirlərin planlaşdırılması və konsepsiyasının hazırlanması, auditoriyanın seçilməsi, marketinq, reklam və təşviqat, canlı ifaların təşkili, layihələrin idarə edilməsi, sağlamlıq və əmək təhlükəsizliyi, qanunvericilik və texnologiya kimi məsələlərini işıqlandırıblar. İntensiv təlim kursunu britaniyalı event-prodüser və təlimatçı Dan Tsu (Londonun BIMM musiqi məktəbi/Lyrix Organix hərəkatı) aparıb və nəticədə Bakı Musiqi Akademiyasının nümuyəndələri Sertifikatları əldə ediblər.

2018-ci il aprel ayının 30 - da ölkələrarası multikultural dəyərlərin inkişaf etdirilməsi məqsədilə nəzərdə tutulmuş tədbir keçirildi. Layihənin əsas təşkilatçısı və rəhbəri Bakı Musiqi Akademiyasının professoru, MDB Parlamentlər arası Şurası Assosiasiyası tərəfindən "Mədəniyyət və İncəsənətin inkişafındakı xidmətlərinə görə"nişanı ilə təltif edilmiş Mina Hacıyeva tədbiri açıq elan etdikdən sonra,Bakı Musiqi Akademiyasının prorektoru, professor Nərminə Quliyeva qonaqları salamlayaraq, ölkələrarası mədəni əlaqələrdən danışdıqdan sonra,Hindistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Sanjay Rana çıxış etdi. Hindistanın qədim musiqi mədəniyyəti, hind raqaları, qədim musiqi alətləri haqqında geniş məlumat verən cənab S.Rana öz təqdimatında qədim köklərə malik hind musiqi mədəniyyətini göz önündə canlandırdı. Cənab səfirin BMA - ya bağışladığı musiqi alətləri "saranqi", "santur", "sarod" və üç cildi olan Hind musiqisi haqqında olan Oksford ensiklopediyası tədbir iştirakçılarının böyük marağına və sevincinə səbəb oldu. BMA-nın dəyərli müəllimlərindən olan Mina xanım təşəkkür əlaməti olaraq cənab Sanjay Rana özünün müəllifi olduğu və 3 dildə işıq üzü görən "Üzeyir Hacıbəyli musiqi təfəkkürü fəlsəfi mədəniyyəti", "Qara Qarayevin təfəkkürünün fəlsəfəsi", "Firəngiz Əlizadə musiqisinin fəlsəfi dünyası" və yeni nəşrdən çıxmış "Azərbaycan muğam fəlsəfəsi" adlı 4 kitabını; musiqi parçaları olan disklər hədiyyə olundu.

Daha sonra növbə təbii ki,musiqiyə verildi.Hind əsilli rəqqasə, 25 il peşakar hind rəqsləri ilə məşğul olmuş, iki il Azərbaycanda yaşayan xanım Nişa Gövindan hind dini musiqisi ilə əlaqəli olan rəqsini tədbir iştirakçılarına təqdim etdi. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun öz çıxışında multikulturalizmi Azərbaycan Respublikası dövlət siyasəti kimi işıqlandırdı, sonra isə BMA magistr I kurs tələbəsi Könül Əlizadə Hindistanın musiqi mədəniyyəti,alətləri haqqında maraqlı məruzə ilə çıxış edərək hazırladığı slaydlarla tədbir iştirakçıları üçün hind musiqisini əyani göz önündə canlandırdı. Məşhur rəqqasə Solmaz Artinin solo rəqsindən sonra,onun

rəhbərliyi və verdiyi quruluş əsasında BMA- nın magistr I kurs tələbələrinin ifasında rəqs-fleşmob nümayiş olundu.Tədbir iştirakçıları belə görüşlərin davamlı olmasını arzu edniblər.

2019-cu il mart ayının 15-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Multikultural layihəsi çərçivəsində olan "Bölünənlər" adlı tamaşasının premyerası Opera Studiyasında baş tutdu. Bədii rəhbəri Bakı Musiqi Akademiyasının prorektoru Nərminə Quliyeva, prodüseri professor Mina Hacıyeva, quruluşçu rejissoru Elvin Mirzəyev, xoreoqraf Solmaz Arti olan tamaşanın məzmunu olduqca maraqlıdır. Belə ki, yeddi müxtəlif ölkə və dövrlərin sevgi əhvalatını tərənnüm edən tamaşa "ən mükəmməl sevgi, ağlasığmaz sonluq" şüarı altında tamaşaçılara təqdim olundu. Bəşər övladına bəxş edilən ali hiss sayılan sevgi, ehtiraz, emosionallıq bu tamaşada parlaq şəkildə öz əksini tapmışdır.

Tamaşaya "Bölünənlər" adının verilməsi də təsadüfi deyildir. Ən mükəmməl sevgi hissələrini aşılayan tamaşada sevginin təkcə bioloji varlıqlar arasında deyil, dünyanın müxtəlif ölkələrində, bir-birinə yad insanların arasında da mümkün olduğunu isbat edir.

Sözü gedən tamaşanın proqramında dünyanın dahi yazıçı və dramaturqlarının əsərləri yer almışdır: Nizami Gəncəvi "Leyli və Məcnun", Hilermo Figeyredo "Ezop", Herman Hesse "Sidhartha", qədim Çin əfsanəsi "Ağ ilanın əhvalatı", Uilyam Şekspir "Romeo və Culyetta", Nəcib Məhfuz "Rodopis", U.Şekspir "Otello" . Bütün bu adı çəkilən əsərlərdə sevgi müxtəlif səpkidə - maneə, haqq, ehtiras, mümkünsüzlük, qarşılıqsız, qınaq, zövq formasında təsvir olunmuşdur.

Tamaşada həmçinin maraqlı rəqs nömrələri - hind və çin rəqsi yer almışdır. Aktyor qismində isə Bakı Musiqi Akademiyasının istedadlı bakalavr və magistr səviyyəsində oxuyan və bu fənnə və siyasətə boyük rəğbət göstərən tələbələri uğurla çıxış etdilər: Leyli-Nəzrin Quliyeva (musiqişünas), Məcnun-Toğrul Salmanov (bəstəkar); Kleya-Ofelya İsgəndərova (musiqişünas),, Ezop-Coşqun Qadaşov(musiqi müəllimliyi); Kamala-Syuzan Pirəliyeva(xor dirijer), Sidhartha-Ramazan Babayev; Susu-Aytac Nəcəfova (musiqi müəllimliyi);, Süsiyen-Murad Hacırzalı(musiqi müəllimliyi);; Cülyetta-Elnarə Saramanova(musiqi müəllimliyi);, Romeo-Əsəd Əsgərov; Rodopis-Aytac Qasımova(musiqişünas),, Tahu-Fərid Əli(nəfəsli alətlət); Dezdemona-Ləman Rəhmətova(musiqi müəllimliyi);,, Otello-Elvin Vahidov(fortepiano).

Tamaşada izləyici qismində müxtəlif ölkələrin səfirliklərinin nümayəndələri də iştirak edirdilər və İTV tərəfindən çəkiliş aparılıb. Tamaşa Opera studiyası səhnəsində baş tutub. Bu səpkidə ilk dəfə səhnələşdirilən "Bölünənlər" tamaşasının premyerası tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanaraq, hətta yenidən səhnələşdirilməsi arzu olundu.

29 mart 2019-cu il tarixində Üzeyir Hacıbəyli adına BMA-nın professoru Mina xanım Hacıyeva Akademiyanın tələbə və magistrları - Ofelya İsgəndərova, Ləman Rəhmətova, Aytac Qasımova, Fərid Əli, Səfərli Nərmin ilə birgə Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin tədbirində iştirak ediblər.

Azərbaycanda ilk ərəb mədəniyyət mərkəzi olan Misir Mədəniyyət Mərkəzi (1999-cu il) Ərəb mədəniyyətinin ölkəmizdə tanıdılmasında böyük rol oynamaqla yanaşı, Misirlə Azərbaycan arasında mədəni-elmi əməkdaşlıq işində canlı bir körpüdür. Bu baxımdan iki dost ölkənin mədəni əlaqələrinin inkişaf etdirilməsi yolunda müxtəlif tədbirlərin həyata keçirilməsi zəruridir. Mart ayının 28-i Misir Mədəniyyəti və Təhsil Əlaqələri Mərkəzində "Ərəb musiqi mədəniyyəti günü"adlı olduqca maraqlı bir tədbir baş tutdu. Qeyd edək ki, bu tarix Ərəb Liqası, Misir Mədəniyyəti və Xarici İşlər Nazirliyi tərəfindən təsis olunub. Bundan sonra hər il 28 mart tarixi "Ərəb Musiqi Günü" kimi qeyd ediləcəkdir.

"Ərəb Musiqi Günündə" Misirin qədim tarixi, mədəniyyəti, musiqisi, Misirin görkəmli musiqi xadimləri, sənətkarları haqqında maraqlı məlumat verildi. Tədbirdə Fələstin səfiri cənab Nasir Abdelkarim də öz çıxışında Misirin ərəb ölkələrinin lideri olmasından, qədim tarixi qədər musiqisinin də çox qədim dövrlərə - eramızdan 2500 il bundan əvvələ təsadüf etməsindən, ərəb musiqisinin zənginliyindən, qədim musiqi alətlərindən məlumat verərək, müxtəlif ölkələrin musiqisinə təsir etməsindən, eyni zamanda başqa ölkələrin musiqisindən də bəhrələndiyini qeyd edir. Tədbirdə çoxsaylı qonaqlar, müxtəlif ərəb ölkələri səfirliklərinin nümayəndələri iştirak edirdilər.

Sonda Misir Ərəb Respublikasının ölkəmizdə mədəniyyət günlərinin keçirilməsi iki dost ölkə arasında mədəni əlaqələrin müvəffəqiyyətlə inkişaf etdirilməsinə olduqca müsbət təsir etdiyi qeyd olundu.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Mina xanım Hacıyeva tələbə və magistrları ilə bərabər, 2019-cu il aprel ayının 17-də görkəmli şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Hürufilik və Nəsimi yaradıcılığında multikulturalizm və tolerantlıq" mövzusunda Azərbaycan Dillər Universitetində (ADU) keçirilən seminarda iştirak ediblər. Seminarda ADU Filologiya və Jurnalistika fakültəsinin tələbələri də iştirak edirdilər. Seminar Azərbaycan Dillər Universitetinin Multikulturalizm Elmi Tədqiqat Laboratoriyasının (ETL) təşkilatçılığı ilə təşkil olunmuşdur.

Seminarda açılış nitqini ADU Multikulturalizm ETL-nin elmi işçisi Əli Fərhadov edərək, Nəsimi yaradıcılığı haqqında ümumi məlumat verdi.

Sonra isə söz Azərbaycan Dillər Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanova verildi.Akademik "Nəsimi yaradıcılığında insan konsepsiyası" mövzusu ilə çıxış etdi. O, bu mövzuda olduqca ətraflı, dolğun, dəyərli fikirlər söyləyərək, Nəsimi qəzəllərindən nümunələr səsləndirdi.

Növbəti - "Azərbaycan ədəbiyyatında sufizm və multikultural ideyalar" mövzusu ilə ADU Multikulturalizm ETL-nın aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Afət Musayeva çıxış etdi.Burada Afət xanım sufizmin yaranması, ədəbiyyatımızda əks olunması haqqında maraqlı fikirlər söylədi.

Bunun ardınca ADU Multikulturalizm ETL-nin kiçik elmi işçisi Turan Kərimli "Qərb ədəbiyyatında sufizm və hürufiliyə baxış" adlı məruzə ilə çıxış etdi.Daha sonra isə Əli Fərhadovun "Fəzlullah Nəimi və İmadəddin Nəsimi yaradıcılığında multikultural dəyərlər" mövzusundakı məruzəsi dinləyicilərin marağına səbəb

oldu.Professor Mina Hacıyeva və magistrant Ofeliya İsgəndərova çıxış edərək, öz maraqlı ideya və təkliflərini irəli sürdülər.

2019-cu il 28 sentyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Candoco" rəqs ansamblı "Lost Dog" müasir rəqs və teatr şirkətinin əməkdaşlığı və "British Council"ın dəstəyi ilə "British Council"ın dörd illik "Unlimited: Limitsiz Addımlara Doğru" proqramının yekun ştrixi olacaq "Arqonavtlar" (The Argonauts) tamaşasını və "Candoco" rəqs qrupunun ifasında "Üz-üzə" və "İkimiz də bilirik" tamaşaları təqdim olunub.

Tamaşalar II Nəsimi festivalı çərçivəsində "British Council Azerbaijan"ın təşkilatçılığı, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə təqdim olunmuşdur.

"Arqonavtlar" tamaşası müxtəlif ölkələrdən olan on nəfər peşəkar və həvəskar, əlilliyi olan və olmayan ifaçıların bir araya gələrək böyük şövqlə çıxış etdikləri səhnə əsəri kimi gələn tamaşaçıların zövqlərini oxşadı. Bu peşəkar ifa 2019-cu ilin iyun ayından sentyabr ayınadək sənətçilərin Ukraynanın paytaxtı Kiyevdə olduqları zaman müddətində ərsəyə gəlmişdir. Təxminən 30-40 dəqiqəlik performans həyatda heç nəyin əngəl olmadığının, incəsənətin, musiqinin insanın həm ruhunu, həm də bədənini idarə edəcək, əngəlləri aradan qaldıracaq ilahi bir qüvvə kimi xarakterizə olunmasının bariz nümunəsidir.

Tamaşadan sonra "Candoco" rəqs ansamblı iki 30 dəqiqəlik performansla çıxış etdilər. "Üz-üzə" (Face in) və "İkimiz də bilirik" (You and I Know)

Tamaşada qonaq qismində Böyük Britaniya və Şimali İrlandiyanın ölkəmizə yeni təyinolunmuş səfiri cənab Ceyms Şarp da iştirak etmişdir.

Onu da qeyd edək ki, əsl reabilitasiya metodu kimi uğur qazanmış artterapiyanın bir növü olan bu silsilə tədbirlərə dövlət və ictimaiyyətin marağı olduqca böyükdür. Cəmiyyətin diqqət mərkəzində olan bu mövzunu təkcə mediya nümayəndələri deyil, eyni zamanda gənclərimiz də işıqlandırmalıdır. Belə bir formatda tədbirlərin ölkəmizdə təşkil olunmasından gənclərimiz maksimum şəkildə yararlanaraq yüksək səviyyədə iştirak etməlidirlər. Bunun əsaslı nəticəsi kimi silsilə tədbirlərin doğurduğu maraqlı metodlardan gələcəkdə ixtisas tələbələri öz elmi işlərində, kariyeralarında istifadə edə biləcəklər.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının professoru, fəlsəfə elmləri doktoru Mina xanım Hacıyeva 2021-ci il 23 aprel tarixində Başkir Dövlət Universitetində "Müasir insanın varlığının etno-tarixi, hüquqi və mədəni-linqvistik əsasları" adlı Beynəlxalq Elmi və Praktik Konfransda çıxış etmişdir.

Konfrans etnosların, müasir insanın və cəmiyyətin mənəvi, fəlsəfi, siyasi- hüquqi, dil inkişafının aktual məsələlərinin hərtərəfli öyrənilməsinə yönəldilmişdir. Müxtəlif ölkələrin(Rusiya, Moldova, Vyetnam, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Azərbaycan) konfrans iştirakçıları öz mövzularıyla maraqlı çıxışlar etmişlər. Professor M.Hacıyeva beynəlxalq konfransda "Azərbaycan mədəniyyətinin inkişafı" adlı mövzu ilə çıxış etmiş, Azərbaycan qədim tarixindən, orta əsr alimlərindən, şair-filosoflarından və XX-XXI əsr bəstəkarların əsərlərindən bəhs etmiş, qədin Azərbaycan torpaqları, Qarabağı qaytarılan II Qarabağ müharibəsi haqqında ayrı-ayrı ölkələrin alimlərinin nəzərinə çatdırmışdır.

Professor Mina xanım Hacıyevanın rəhbərliyi altında Tarix-nəzəriyyə fakültəsinin 4-cü kurs tələbəsi Gülər Babayeva "Azərbaycanda xanəndəlik sənətinin inkişafı" adlı mövzusu ilə konfransda çıxış etmişdir. Bununla beynəlxalq ictimaiyyətə Azərbaycan mədəniyyəti, II Qarabağ muharibəsindən danışarkən multi mədəni əlaqələr yaradılıb.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının professoru, fəlsəfə elmləri doktoruMina xanım Hacıyeva Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi Elmi təminat və araşdırmalar şöbəsi tərəfindən 27 aprel 2021-ci il tarixində keçirilən "İdarəçilikdə müasir tendensiyalar: Yeni mədəni menecment" adlı onlayn seminarında çıxış edərək "Müasir musiqi menecmentinin Azərbaycan musiqisinə tətbiqi" adlı məruzəsində incəsənət sahəsində menecment fəaliyyəti, musiqi menecmenti, bu istiqamətlərdə beynəlxalq təhsil və təcrübənin əhəmiyyəti, həyata keçirilən layihələrdə müasir idarəetmə modelləri və digər istiqamətlərdən geniş söhbət açmışdır.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının professoru, fəlsəfə elmləri doktoru Mina xanım Hacıyeva 2021-ci il 27 aprel tarixində Rusiya Elmlər Akademiyası "Etnologiya və antropologiya" İnstitutu Medical Antropology Center Qafqazda uzunömürlük problemi mövzusunda konfransda iştirak etmişdir.

Konfransda sağlam həyat müdrüklüyü, sosio-mədəni faktorlar və etno-psixoloji aspektlər müzakirə olunmuşdur.

Seminarda eyni zamanda Mərkəzin şöbə müdirləri və əməkdaşları, Azərbaycan rayonları Heydər Əliyev Mərkəzlərinin direktorları, Mədəniyyət evlərinin və muzeylərin direktorları iştirak etmişlər.Moderator isə İnnovativ inkişaf və təbliğat şöbəsinin İnnovasiyalar və kreativ layihələr sektorunun metodisti Türkan Həsənova idi.

2021-ci il 29 aprel tarixində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının professoru, fəlsəfə elmləri doktoru Mina xanım Hacıyeva 29 aprel - «Beynəlxalq rəqs günü» ilə əlaqədar AzTV kanalının «Telesəhər» verilişində canlı yayımda çıxış etmişdir.

M.Hacıyeva rəqsin tarixikökləri, fəlsəfi mahiyyəti, milli, klassik balet, modern kontemprorary və sosial dansolan Argentina tanqosu haqqında maraqlı söhbət etmişdir. Söhbət üç canlı rəqsi fasilə müşayiət olunmuşdur.

2021-ci il 25 may tarixində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının professoru, fəlsəfə elmləri doktoru Mina xanım Hacıyeva NizamiGəncəvinin irsi dünya elmi-nəzəri fikrində Respublika elmi-nəzəri konfransının plenar

iclasında «Qarmoniə sfer xudojestvennıx obrazov Nizami" mövzusu ilə çıxış edib.Öz məruzəsində mədəniyyətin formalaşmasında ədəbiyyat və incəsənətin faktorların amili kimi bəhs edərkən Nizami Gəncəvinin yaradıcılığı üzərində ətraflı dayanmışdır.

2021-ci il 11 sentyabr tarixində professor Mina Hacıyeva Mədəniyyət kanalının Dünya rəqsləri haqqında yeni layihənin aşılış "Harmoniya" verilişində qonaq olmuş və çoxmaraqlı təqdimatla ehtirası,coşqunluğu ifadə edən, ispanların həyat tərzini özündə əksetdirən ispanrəqsləri və ispan milli musiqi aləti olan gitara aləti haqqında ətraflı məlumat vermişdir. Verilişdə M.Hacıyeva peşəkar rəqqasların təqdimatında bir-birindən maraqlı rəqs nömrələrinin müşayiətilə həm qədim (flamenko, bolero, segidilya, fandango), həm müasir ispan rəqslərinin tarixindən, texnikasından, quruluşundan ispan rəqslərini sevən tamaşaçıların nəzərinə çatdırmışdır.

Qeydedəkki, professor M.Hacıyevanın təşkil etdiyi tədbirlər mötəbər qonaqların, müxtəlif ölkə səfirliklərinin iştirakı ilə böyük auditoriya kütləsinə təqdim edilmiş və böyük marağa səbəb olmuşdur.

M.Hacıyeva keçirilən dərslərlə kifayətlənməyərək, tələbələrin dünyagörüşlərinin artırılması məqsədilə, onların incəsənətin müxtəlif sahələrinin, multukul-kuralizmin təbliğ olunduğu tədbirlərdə iştirak etməsinə çalışır. Bunlardan biri də "Forum" teatrıdır, hansı ki, burada daha çox cəmiyyət həyatına daha dərindən təsir göstərən, həll olunmadığı təqdirdə dərin yaralar açabiləcək kritik mövzular, problemlər, münaqişələr improvizasiya edilir. Bu zaman hər şey təbii formada əks olunur, heç bir sujet xəttinə ehtiyac yaranmır. Toxunulan sosial problemlər sırasına daha çox gender bərabərliyi, ailə-məişət problemləri, zorakılıq, inklüzivlik, insan hüquqlarının qorunması, miqrantların problemləri, repatriasiya, cəmiyyətin həssas təbəqələrinin yeni mühitə adaptasiya və reinteqrasiya məsələləri və s. daxildir. Burada əsas məqsəd teatrın insan həyatına gətirdiyi müalicəvi təsirinə xas xarakterik xüsusiyyətlərini göstərmək, sosial həyatla incəsənətin harmoniyası nəticəsində meydana çıxan teatr növlərinin (Spontanlıq, Oynatma Teatrı, İştirakçı-Sosial Teatr, Forum və ya İmprovizasiya Teatrı, İnteraktiv Teatr, Küçə Teatrı, İnklüziv Teatr və s.) sosial problemlərin, münaqişələrin təsvir olunması və həll olunmasıdır ki, tamaşaçı-tələbələrdə burada yaxından iştirak edirlər.

Professor Mina Hacıyeva tərəfindən təşkil edilən layihələrdə, multikultural layihə olan"Bölünənlər" tamaşasında aktiv iştirak edən bir tələbənin də bu tədbirlər nə ümumiyyətlə multikultural məsələlərə dair fikirləri, təəssüratları maraqlıdır:

- "Mən Bakı Musiqi Akademiyasında magistratura pillləsi üzrə təhsil aldıqda professor Mina xanım Hacıyeva bizə "Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti" fənnini tədris edirdi. Bu fənn bizim üçün ənənəvi dərs prosesi-dərsə cavab vermək, qiymət almaq deyildi. Mina xanımın bütün coşqun enerjisi biz tələbələrə sirayət etmişdi. Hamı çox aktiv şəkildə, fərqli, maraqlı üsullarla, videogörüntülərlə dərsdə iştirak edirdilər. Hər dərsdə hər bir tələbə müxtəlif ölkələrin musiqi mədəniyyəti, milli musiqi alətləri haqqında məlumat verir, həmin ölkənin xalq musiqisi və rəqslərini auditoriyaya təqdim edirdilər.

Dərslərin birində mən Əlcəzair və Misir musiqi mədəniyyəti haqqında danışmalı idim. Mina xanımın hər zaman fərqli, maraqlı dərs metodundan bəhrələnərək, bu seminara xüsusi hazırlaşmış, həmin ölkələrin milli geyim aksesuarlarından, musiqi nömrələrindən istifadə edərək təqdim etdim və bu, hər kəsin marağına səbəb oldu.

Hər belə maraqlı dərs prosesində multikulturalizm-müxtəlif ölkələrin mədəniyyəti, incəsəti geniş müzakirə olunurdu. Bu müzakirələrdən artıq yeni ideyalar, planlar yaranırdı ki, bu da multikulturalizm layihəsi olan "Bölünənlər" tamaşasının ərsəyə gəlməsinə səbəb oldu.

"Bölünənlər" tamaşasına qədər Mina xanım və biz tələbələri Çin, Hind, Misir və s. səfirliklərinin təşkil etdiyi müxtəlif tədbirlərdə iştirak edir, bu ölkələrin ənənələri, mədəniyyətləri ilə yaxından tanış olurduq.

Belə tədbirlərdən bəhrələnib Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Hindistan səfirliyinin dəstəyi ilə Mina xanımın rəhbəri olduğu "Şərq musiqisi və Multikultural dəyərlər" mövzusunda ilk layihə ərsəyə gəldi.

Hind mədəniyyəti haqqında məlumat, qədim hind alətlərinin nümayişi, hind rəqqasəsinin rəqsi və s. bizdə xoş təəssüratlar yaratdı. Eyni zamanda mən və digər tələbələrin hind rəqsini qısa zaman ərzində mənimsəyib, tamaşaçılara təqdim etməyimiz hər kəsin böyük marağına səbəb oldu.

Bu və digər tədbirlərdən aldığımız təəssüratlar bizi yeni ideyaların axtarışı ilə "Bölünənlər" tamaşasına gətirib çıxardı.

Prodüserliyi M.Hacıyevaya məxsus, "Bölünənlər" tamaşası multikulturalizmin parlaq nümunəsi olaraq, özündə yeddi fərqli ölkənin qədim sevgi əhvalatlarını cəmləmişdir. Qeyd edim ki, Hind, Çin, Misir səfirliklərinin dəstəyi də böyük idi, onlar öz milli geyimləri ilə tamaşa zamanı bizi təmin etmişdilər. Burada maraqlı nüans peşəkar aktyor olmayan, musiqiçi tələbələrin məharətlə aktyorluq bacarıqlarını nümayiş etdirməsidir. Bu tamaşada iştirak edərək, hər birimiz ifa etdiyimiz rolları mənimsəmiş, özümüzü canlandırdığımız obrazların şəxsiyyətində təsəvvür edirdik. Uzun məşq prosesləri isə bizi heç yormurdu, o qədər alışmışdıq ki, hətta məşqlər zamanı bir-birimizə ifa etdiyimiz obrazların adı ilə müraciət edirdik. Bir sözlə, bu tamaşadan öyrəndiklərimiz, təəssüratlarımız bizim yaddaşımıza xoş xatirə kimi həkk olundu".-musiqişünas Ofelya İsgəndərova.

Multikulturalizmin təbliğini beynəlxalq jurnallarda da görmək mümkündür.

Üzeyir Hacıbəyli adına Bak Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrsının müdiri, Sənətşünaslıq doktoru, Əməkdar incəsənət xadimi, professor Tariyel Məmmədovun da bu istiqamətdə çox maraqlı və böyük layihələri vardır: "Karaoke. Milli poeziya və musiqi toplusu" (<http://karaoke.musigi-dunya.az/>) və "Azərbaycan ənənəvi musiqi atlası" (<http://atlas.musigi-dunya.az/>), "Musiqi dünyası" Jurnalın baş redaktoru və naşiri Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovun multikultural məsələləri işiq üzü görmüşdür.

Çox saylı kreativ açıq dərsləri keçirilib və həmin dərslərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin

aparıcı mütəxəssisləri Multikulturalizm elmi-tədqiqat laboratoriyasının müdiri İrina Kunina və başqaları iştirak etmişlər.

Yekunda, qeyd etmək lazımdır ki, hal hazırda Multikulturalizm fənni Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında tədrisi uğurla davam edir, tələbə-gənclər tərəfindən müsbət qarşılanır və multikulturalizm siyasəti dəstəkliyirlər. Azərbaycan Respublikasında əmin amanlıq şəraitində yaşayan titul və azsaylı xalqlar göz önündədir. Onun qədim tarixi kökləri, fəlsəfi-ədəbi qaynaqları vardır. Bu bizim həyat tərzimizdir və belə də davam edəcək!